https://doi.org/10.59849/3006-1342.2025.2.20
UOT 94 (479.24)

*Səidə Zakir qızı Quliyeva*
*Bakı Dövlət Universiteti,*
*Tarix üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: saidaquliyeva@bsu.edu.az*
*ORCID ID: 0000-0003-4320-3425*

# TƏRTƏR ƏHALİSİNİN ERMƏNİ FAŞİZMİNƏ QARŞI MÜBARİZƏSİ VƏ QARABAĞ MÜHARİBƏLƏRİNDƏ İŞTİRAKI

*Tədqiqat Vətən müharibəsinin 5 illiyinə həsr edilir.*

*Məqalədə Tərtər əhalisinin XX və XXI əsrlərdə erməni faşizminə qarşı apardığı mübarizə və Qarabağ müharibələrində iştirakı tarixi ardıcıllıqla təhlil edilir. Tədqiqatda rayonun geostrateji mövqeyi, əhalisinin bütün çətinliklərə baxmayaraq erməni təcavüzünə qarşı göstərdiyi müqavimət, müxtəlif dövrlərə aid döyüşlər, humanitar və hərbi mübarizə formaları, Tərtərin qəhrəman övladlarının fəaliyyəti arxiv və mətbuat materialları əsasında təhlil olunur.*

*Müəllif tarixi mənbələr və faktlar əsasında 1905-1907-ci illərdə, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, xüsusilə XX əsrin sonlarında baş verən erməni hücumlarını təhlil edərək Tərtərin mübarizə tarixini sistemləşdirir. 1990-cı illərdə və 2020-ci ildə baş verən Qarabağ müharibələri zamanı rayon cəbhəyanı ərazi olmaqla yanaşı, həm də əhalinin yaşayış yerini tərk etməyən məkan kimi xüsusi strateji və simvolik əhəmiyyət daşıyırdı. Rayonun həm döyüş bölgəsi, həm də mülki əhalinin davamlı yaşadığı ərazi kimi mövcudluğu xalqın mətinliyi və milli iradəsinin göstəricisi kimi təqdim olunur. Vətən müharibəsində (2020) Tərtərin dayanıqlılığı və əhalinin möhkəm iradəsi şəhəri çağdaş "qəhrəman şəhər" modelinə çevirmişdir.*

*Tədqiqat erməni faşizminə qarşı mübarizədə Tərtərin rolunu ön plana çıxarmaqla yanaşı, bu istiqamətdə aparılmış tədqiqatlara tarixi yaddaş kontekstində töhfə verir.*

*Açar sözlər:* Tərtər, Qarabağ müharibəsi, erməni faşizmi, xalqın mübarizəsi, qəhrəman şəhər

## *Giriş*

Təqdim edilən məqalədə Tərtər əhalisinin müxtəlif dövrlərdə erməni faşizminə qarşı mübarizəsi araşdırılır. Mövzunun aktuallığı Vətən müharibəsində əldə edilən qələbədən sonra daha da artmışdır. Araşdırma zamanı mövzu ilə əlaqədar tədqiqatlar və mətbuatda yer alan materiallar tədqiqata cəlb edilmiş, müxtəlif dövrlərdə rayon ərazisində baş verən döyüşlər, ermənilərin hücumları və xalqın mübarizəsinin mərhələləri, Tərtərin müqavimət mərkəzi kimi rolu və qəhrəmanlıq irsi təhlil edilmişdir. Təəssüf ki, Qarabağ müharibələri barədə mövzular araşdırılarkən erməni faşizminə qarşı mübarizə mərkəzləri diqqətdən kənarda qalmışdır. Həm erməni faşizminə qarşı mübarizə mərkəzi, həm də cəbhədən uzaq olan bölgələrimiz barədə tədqiqatlar bütünlükdə azərbaycan xalqının erməni faşizminə qarşı mübarizəsini önə çıxartmaq üçün əhəmiyyətlidir. Bu baxımdan hazırkı tədqiqat Vətən tarixşünaslığına töhfə kimi qiymətləndirilə bilər.

Tərtər rayonunun ərazisi Kiçik Qafqaz dağlarının ətəyində Qarabağın şimal-qərbində yerləşərək regionun dağlıq və aran bölgələrini əlaqələndirdiyi üçün mühüm strateji əhəmiyyətə malikdir. Qarabağ regionunun əsas yollarından biri olan – Tərtər-Bərdə və Tərtər-

Şuşa yolu buradan keçir. Bu coğrafi mövqe rayona tarixin müxtəlif dövrlərində hərbi-siyasi baxımdan mühüm status qazandırmışdır.

Tərtər rayonunun ərazisi Rusiya imperiyası, daha sonra Azərbaycan Xalq Cümhuriyyəti dövründə Cavanşir qəzasının mərkəzi olmuşdur. Sovetlərin işğalından sonra isə ərazi sahə olaraq Ağdam qəzasının tərkibinə daxil edilmişdir. Rayon inzibati vahid olaraq 1930-cü il avqustun 8-də təşkil edilmişdir. 1940-cı ildə şəhər və rayon Mirbəşir adlandırılmış, 1949-cu il avqustun 5-də şəhər statusu verilmişdir. Azərbaycan SSR Ali Sovetinin 7 fevral 1991-ci il 54-XII saylı qərarına əsasən rayonun tarixi adı – Tərtər bərpa edilmişdir [5]. 1977-ci ildə rayonun inzibati bölgüsünə aid məlumatlarda 14 kənd sovetinin və 49 kəndin olduğu bildirilir [25, s.8, 77-78]. Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edildikdən sonra və erməni silahlılarının Ağdərə və ətraf ərazilərə hücumları artdıqda Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə 13 oktyabr 1992-ci il tarixdən Ağdərə şəhəri və rayonun 13 kəndi torpaq sahələri ilə birlikdə (Umudlu, Zəylik, Metsşen, Möhrətağ, Ağabəyələnc, Mağavuz, Akop Kamari, Minqrelsk, Nerkin Oratağ, Qasapet, Canyataq, Dəmirli, Gülyataq) Tərtər rayonunun inzibati tərkibinə verilmişdir [6]. Vətən müharibəsində (2020) qələbə və antiterror əməliyyatından (2023) sonra işğaldan azad edilən bu ərazilər əsasında Ağdərə rayonunun bərpasına şərait yaranmışdır [2]. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2023-cü ilə aid məlumatında rayonun inzibati bölgüsündə 50 kəndin və 28 kənd inzibati ərazi dairəsinin olduğu göstərilir [1]. Hərbi əməliyyatların yeni başladığı dövrlə müqayisədə 2024-cü ildə əhalinin sayı demək olar ki, dəyişməmişdir:1991-ci ildə 81 min əhalisi olan rayonda hazırda 80,5 min əhali yaşayır [7] (rayon üzrə əhalinin say dinamikasının və etnik tərkibinin dəyişməsi mövzusunun ayrıca tədqiq edilməsinə ehtiyac vardır. Bu zaman nəzərə alınmalıdır ki, hərbi əməliyyatlar və SSRİ-nin dağılması ilə əlaqədar güclü miqrasiya prosesi baş vermis; 1992-2023-cü illərdə Ağdərə rayonunun bir sıra əraziləri Tərtərin tərkibində olmuşdur; rayon ərazisində yerləşdirilən qaçqın və məcburi köçkünlər digər ərazilərə köçürülür v.s.).

XIX əsrdə Rusiya imperiyasının Qafqazı işğal etməsindən sonra buraya köçürülən ermənilər Qafqazın digər bölgələrində olduğu kimi Tərtər ərazilərində də xristian irsinə sahib çıxmağa başlamış, ərazi iddiaları buranı da əhatə etmişdir. Ermənilərin Qarabağa, o cümlədən Tərtərə gəlmə olduqlarını göstərən sübutlardan biri "Marağa-150" abidəsidir. Belə ki, ermənilər Qarabağa ilk köçlərinin 150 illiyini qeyd etmək məqsədilə bir neçə xatirə abidəsi inşa etmişdilər. Bu abidələrdən biri Xankəndində hazırda "Biz və bizim dağlar" heykəlinin yerləşdiyi ərazidə, digəri Ağdərə rayonunun giriş hissəsində və üçüncüsü Çaylı kəndində ucaldılmışdı. Lakin bu abidələr içərisində yalnız Ağdərə rayoununda yerləşən "Marağa-150" memorialının qalıqları dövrümüzə qədər gəlib çatmışdır. 1988-ci ildə münaqişə başladıqda, ermənilər köçürüldüklərini sübut edən bu abidələri dağıtmış, 1993–2020-ci illərdə "Marağa-150" abidəsi yerləşən ərazini raket atəşinə məruz qoyaraq izlərini tamamilə silməyə cəhd göstərmişlər. Hazırda abidənin qalıqları ermənilərin Qarabağa köçürülməsi faktını sübut edən mühüm tarixi sübut kimi qorunur [12; 18, s. 431-432; 19; 22].

Tərtər rayonu 1905-1907, 1918-1920, 1992–1994, 2020-2023-cü illərdə erməni millətçilərinə qarşı mübarizələrdə və Qarabağ müharibələrində strateji və simvolik əhəmiyyətə malik bölgələrdən biri olmuş, həm coğrafi mövqeyi, həm də əhalisinin qəhrəmanlığı ilə seçilmişdir.

Bunlarla yanaşı, Tərtər Azərbaycanın su təhlükəsizliyi üçün əhəmiyyət daşıyan Sərsəng su anbarının yaxınlığında yerləşməsi ilə də mühüm strateji ərazidir. XX əsrin əvvəllərində ermənilər Tərtər çayından ayrılan su kanallarının azərbaycanlılar yaşayan kəndlərə getməsinə maneə yaradırdılar və Qarabağ general-qubernatoru Xosrov bəy Sultanov su kanallarının işləməsinin təmin edilməsi üçün göstəriş vermişdir. 1967-ci ildə Tərtər çayının üzərində Sərsəng su anbarı tikilmişdir. Rayonun əkin sahələrinin 70 faizi bu anbardan qidalanırdı. İşğal dövründə ermənilər su anbarının bəndlərini bağladıqları üçün rayon və ətraf ərazilər

susuzluqdan əziyyət çəkirdi [17, s. 115, 279, 316, 320].

**1. Tərtər əhalisinin XX əsrin əvvəllərində erməni hücumlarına qarşı mübarizəsi.** Tərtər şəhəri XX əsrin əvvəllərində ermənilərin həyata keçirdikləri soyqırımı cinayətləri və etnik təmizləmə siyasətlərinə qarşı mübarizədə özünəməxsus yer tutmuşdur. 1906-1907-ci il soyqırımları zamanı burada "Difai" partiyasının komitəsi fəaliyyət göstərirdi [21, s. 71, 75]. Eldar Əzizov mənbələr əsasında Məşədi Şamil Hacıyev tərəfindən partiyanın Tərtərdə yardımçı komitəsinin təşkil edildiyini, partiya şöbəsinə Məşədi Alim İsmayılov, Məşədi Dadaş Muradxanov, Məşədi Fərhad Vəlibəyov, Məşədi Muxtar Kərbəlayı İbad oğlunun başçılıq etdiyini, şöbənin təbliğatçılarının isə Məşədi Muxtar Zeynalov, Hacı İbrahim İsmayılov, Kərbəlayı Mahmud İsmayılov, Məşədi Rüstəm Muradxanov, Məşədi Əli Dadaşov olduğunu yazır [13, s. 60]. Onlar işlərin təşkilinə rəhbərlik edirdilər.

1918-ci il soyqırımları zamanı da Tərtər əhalisi erməni silahlılarına ciddi müqavimət göstərmişdir. "Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu" əsərində müəlliflər göstərir ki, "*Nuru Paşa xatirələrində qeyd etdiyinə görə o, Cəbrayıl-Ağdam-Tərtər marşrutu ilə Yevlaxa gəlmişdi.*" [9, s. 137]. Mayın 24-də Yevlaxa gələn Nuru paşa oradan Gəncəyə yollanmışdı. Bu fakt ərazinin həmin dövrdə erməni silahlılarının hücumlarından qorunduğunu sübut edir. Bu dövrdə 5-ci Qafqaz diviziyasının iaişə təminatı üçün 3 məntəqə komandanlığı yaradılmışdır. Onlardan biri olan Gəncə məntəqə komandanlığı Qazax, Gəncə və Tərtər sancaqlarını ehtiva edirdi və mərkəzi Gəncə şəhəri idi [9, s. 151]. 1918-ci ilin avqust ayında ermənilərin işğal etdiyi əraziləri azad etmək üçün səfərbərlik keçirilərkən Tərtər əhalisi bu prosesdə fəal olmuşdur. Belə ki, səfərbərlik zamanı Tərtərdən 245 nəfər süvari toplanmışdı. Erməni silahlı birləşmələrinə qarşı aparılan əməliyyatlar nəticəsində Bərdə–Tərtər yolu boyunca yerləşən və dağətəyi zonada salınmış erməni kəndləri tərk-silah edilmiş və yerli hakimiyyətin nəzarətinə götürülmüşdür. Məlumdur ki, bu dövrdə də Azərbaycan Ordusu təchizat problemi yaşayırdı. Bu baxımdan erməni silahlılarından alınan toplar və silahlar ordunun istifadəsinə verilirdi. Oktyabrın 17-də isə Çaylı kəndi ərtafında Qafqaz İslam Ordusunun əsgərləri ilə ermənilər arasında döyüşlər qeydə alınmışdır [9, s. 166, 214, 216]. Həmin dövrdə də erməni silahlıları əsasən Maqadiz və Talış kəndlərində toplaşmışdı. Qafqaz İslam Ordusunun Azərbaycandakı xidmətləri Osmanlı dövləti tərəfindən qiymətləndirilərkən Tərtər mövqe komandanı yüzbaşı (kapitan) Həqqi əfəndi 5-ci Məcidiyyə ordeni ilə təltif edilmişdir [9, s. 340].

Məlumdur ki, Cavanşir qəzası 1919-cu ilin yanvarında yaradılan Qarabağ general-qubernatorluğunun tərkibinə daxil idi və bu dövrdə hərbi əməliyyatlar zamanı tranzit baza olmuşdur. Qubernatorluğun həyata keçirdiyi tədbirlər nəticəsində bölgədə sabitlik yaranmış, erməni millətçiləri Cümhuriyyət hakimiyyətini qəbul etmişdir. Lakin 1920-ci ilin Rusiyanın ikinci dəfə Azərbaycanı işğalı ərəfəsində ermənilər Qarabağda təxribatlar yaratmış, Azərbaycan Ordusu bura cəlb edilmişdi. Bu vəziyyət dövlətin şimal sərhədlərinin müdafiəsini zəiflətmişdi [16, s. 75-76, 82-83]. Natiq Məmmədzadə "Azərbaycanın Qarabağ bölgəsində azərbaycanlıların soyqırımı (1918-1920)" əsərində göstərir ki, "... *Martın 22-də gecə saat 3-də erməni qüvvələrinin eyni vaxtda Şuşa, Xankəndi, Əsgəran, Xocalı və Tərtərdə yerləşən Azərbaycan qoşun bölmələri üzərinə hücumu başladı.... Onların 24 martda səhər saat 6-da Tərtər üzərinə hücumları da dəf edildi..*" [26, s. 62]. 1920-ci ilin mart–aprel aylarında erməni silahlı dəstələrinin Qarabağda hücumları genişlənmiş, lakin bir sıra bölgələrdə, o cümlədən Tərtər və Əsgəranda azərbaycanlı qüvvələrin müqaviməti ilə qarşılaşmışlar. Əsgəranda kiçik dəstələr qəhrəmancasına döyüşərək həlak olmuş, Tərtərə edilən hücum isə uğursuzluqla nəticələnmişdir. Hərbi vəziyyətin gərginləşməsi ilə əlaqədar olaraq, mart ayından etibarən Azərbaycan ordusunun müxtəlif alayları – o cümlədən Quba, Gəncə, Ağdaş, Zaqatala və Tərtər bölmələri Qarabağa göndərilmişdir. Martın 26-da Ağdamda general-mayor Həbib bəy Səlimovun rəhbərliyi ilə bölgədə əməliyyatlara nəzarət etmək üçün xüsusi qərargah

yaradılmışdır. Nəticədə, Həbib bəy Səlimovun rəhbərliyi ilə Qarabağı erməni silahlılarından təmizləsələr [27, s. 55] də, Azərbaycan Rusiya tərəfindən işğal edilmişdir.

**2. Erməni faşistlərinin XX əsrin sonunda hücumları və Tərtərin mübarizəsi.** Tərtərin ərazisi XX əsrin əvvəlində olduğu kimi XX əsrin sonu və XXI əsrdə baş verən hərbi əməliyyatlar zamanı da ön cəbhə olmuşdur.

90-cı illərdə Ermənistandan və xaricdən gələn erməni silahlıları (həmin dövrdə belə dəstələrin üzvlərinə "erməni saqqallıları" deyilirdi) tərəfindən rayonun müxtəlif kəndləri (1989-cu ildə Tərtər-Kəlbəcər yolunun partladılması, 1991-ci il mayın 7-də Qaradağlı, iyunun 9-da Qapanlı, 1992-ci il fevralın 1-də Qapanlı, Qaradağlı, Seydimli, Səhlabad, Cəmilli, Brunc v.d. kəndləri, Şəhriyar qəsəbəsi və s.) davamlı hücumlara məruz qalır, əhali girov götürülür, mal-qara oğurlanırdı [11, s. 12, 24, 59; 16, s. 152-156,162-164]. 1992-ci ildən etibarən hərbi texnika ilə silahlanan erməni silahlı qüvvələri Tərtər rayonunun ərazisini ağır artilleriya vasitələri – toplar, raket qurğuları və "Qrad" sistemləri ilə intensiv atəşə tutmağa başlamışdılar. Bununla da, evlər, müxtəlif obyektlər, təsərrüfatlar dağıdılırdı. Rəsmi qeydiyyatları təhlil edərək belə qərara gəlmək olur ki, Tərtər şəhəri 1992-ci il fevralın 1-dən başlayaraq 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatına qədər davamlı olaraq ermənilərin hücumlarına məruz qalmışdır. 1993-cü ilin iyul ayından başlayaraq ermənilər tərəfindən ərazilərin minalanması faktları qeydə alınmışdır. Bu terror siyasətinin qurbanları hələ də davam etməkdədir. Bərdə-Tərtər-Ağdərə-Kəlbəcər və Bərdə-Tərtər-Ağdərə-Xankəndi-Şuşa yolu davamlı olaraq erməni silahlılarının hücumuna məruz qalırdı. Rəsmi məlumatlarda bu yollarda hərəkət edən mülki insanlara, avtobuslara, yük maşınlarına hücumlar barədə çoxsaylı faktlar əks olunmuşdur [11, s. 12].

1992-ci ildə hərbi əməliyyatların genişlənməsi ilə Tərtər rayonu cəbhə bölgəsinə çevrilmiş, Tərtər-Ağdərə cəbhəsi döyüşlərin ən şiddətli ərazilərdən biri olmuşdur. Ərazi Ağdərə rayonu uğrunda gedən döyüşlər zamanı Azərbaycan Ordusu üçün loqistika və dəstək mərkəzi rolu oynamışdır. Ağdərə rayonunun və ətraf kəndlərin işğalı ilə Tərtər birbaşa erməni hücumlarının hədəfi olmuşdu. 1993-cü ilin ortalarında erməni qüvvələri Tərtəri ələ keçirməyə cəhd etdi, lakin bu cəhd Azərbaycan ordusu və yerli əhalinin mübarizəsi nəticəsində uğursuz olmuşdu.

1992–1994-cü illərdə şəhər mühasirədə qalmasına baxmayaraq, əhali ərazini tərk etməmiş, yerli müdafiə dəstələri ilə birlikdə erməni silahlı birləşmələrinə qarşı cəsarətlə mübarizə aparmışdır. Rayonunun mərkəzi və bəzi kəndləri işğaldan qorunsa da 13 kənd (Seysulan, Çaylı, Qazyan və s.) işğal olunmuşdu [3, s.48; 18, s. 160]. Atəşkəs dövründə (1994-2020) də ərazi daimi olaraq atəşə tutulmuş, hərbiçilər və mülki insanlar arasında şəhidlər olmuşdur [16, s. 173, 185-192].

Bu illərdə Tərtər rayonu əhalisi ağır humanitar fəlakətlə üzləşmişdir: həm hərbi qulluqçular, həm də mülki şəxslər erməni vəhşiliyinin qurbanı olmuş, eyni zamanda bölgəyə qaçqın və məcburi köçkünlər yerləşdirilmişdir. Ermənistanın təcavüzü nəticəsində 1 yanvar 2024-cü il tarixinə Tərtər rayonunda 2.635 nəfər qaçqın və 10.761 nəfər məcburi köçkün məskunlaşmışdır [23].

**3. Tərtərdən qələbəyə gedən yol.** Aprel döyüşləri (2016) zamanı Tərtər rayonu istiqamətində mühüm strateji mövqelər, xüsusilə Talış kəndi ətrafındakı yüksəkliyə nəzarət edən mövqelər və Seysulan kəndi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir [8; 14]. Bu əməliyyatlar nəticəsində Tərtərin cəbhəyanı kəndlərinə birbaşa təhlükə azalmış, həm də ordunun əməliyyat çevikliyi genişlənmişdir. Aprel döyüşləri Tərtər rayonunun həm hərbi, həm də psixoloji baxımdan əhəmiyyətini bir daha nümayiş etdirmişdir. İşğaldan azad edilmiş bu ərazilər rayonun strateji mövqeyini gücləndirmiş və 2020-ci ilin payızında baş verən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun irəliləyişi üçün baza olmuş, ətraf ərazilərin azad olunmasında mühüm rol oynamışdı [8].

Vətən müharibəsi (2020) zamanı 44 gün ərzində şəhərə 16 mindən çox mərmi atılmış, qadağan olunmuş kasetli bombalardan istifadə edilmişdir. Şəhərdə çoxsaylı ev, məktəb, xəstəxana, mədəniyyət obyektləri və qəbiristanlıqlar dağıdılmışdı. Bu dövrdə Tərtər "ikinci Gəncə", hətta "Cəhənnəmə çevrilmiş şəhər" kimi xarakterizə edilirdi. Beynəlxalq qeyri-hökumət təşkilatı olan Amnesty İnternational müharibə dövründə Tərtərə dəyən zərəri qiymətləndirmişdir. Hesabat ermənilərin vəhşiliklərini, mülki əhaliyə qarşı həyata keçirdikləri cinayətləri sübut edir [4]. Mülki əhali ağır şəraitə baxmayaraq şəhəri tərk etməmiş, bu cəsarət Tərtəri milli müqavimətin və xalqın ruhunun sarsılmazlığının rəmzinə çevirmişdir.

Azərbaycan Ordusu müharibənin ilk günlərindən başlayaraq Ağdərə, Talış, Suqovuşan və Madagiz istiqamətində uğurlu hərbi əməliyyatlar həyata keçirmişdir. Suqovuşanın azad edilməsi (3 oktyabr 2020) ilə strateji su anbarı və yüksəkliklərə nəzarət Azərbaycan Ordusunun nəzarətinə keçmişdir. Oktyabrın 4-də isə Talış kəndi və ətraf yüksəkliklərin işğaldan azad edilməsi erməni silahlılarının müdafiə xəttinin çökməsinə səbəb olmuşdu [8]. Bu əməliyyatlar Tərtərin təhlükəsizliyi baxımından böyük əhəmiyyət daşımış və düşmənin mövqeləri zəiflədilmişdir. Beləki, bu ərazilərin işğaldan azad edilməsi ilə Tərtər şəhəri və kəndləri, həmçinin Goranboy rayonu və digər ərazilər Ermənistan silahlı qüvvələrinin artilleriya atəşi radiusundan qismən çıxarıldı, Tərtərə edilən hücumlar azaldı, cəbhə arxası təhlükəsizləşdi.

Tərtər şəhəri Qarabağda işğala məruz qalmayan rayonlar arasında həm mülki itkilər, həm də dağıntılar baxımından ən çox zərər çəkmiş ərazidir [15, s. 4-10]. Ümumilikdə, 4500-dən çox bina, 3 məktəb, 1 xəstəxana, 1 mədəniyyət evi və 1 uşaq bağçası zədələnmiş və ya tamamilə məhv olmuşdur.

Vətən müharibəsindən sonra Tərtər rayonunda genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanmışdır. Xüsusilə Tərtər şəhərində, eləcə də Suqovuşan və Talış kəndlərində bərpa prosesi daha tez başlanmışdır. Hazırda Seysulan, Çaylı və Qazyan kəndlərində də yenidənqurma işləri davam etdirilir. Bu çərçivədə 2000-dən artıq yaşayış evi tikilmiş və ya əsaslı şəkildə bərpa olunmuş, avtomobil yolları, su təchizatı və enerji infrastrukturu müasir tələblər əsasında yenilənmişdir: Tərtər-Suqovuşan yolu tam təmir olunmuş, Suqovuşan Su Anbarı və elektrik infrastrukturu bərpa olunmuşdur. Sosial layihələr sırasında isə məktəblərin təmiri, psixoloji reabilitasiya mərkəzlərinin qurulması, şəhid ailələrinə evlər verilməsi və bərpa edilən kəndlərə qayıdış proqramları icra edilir.

## 4. Qəhrəman şəhər və qəhrəman övladları

Tədqiqatımız göstərir ki, Tərtər həm XX əsrin əvvəllərində, həm 90-cı illərdə, həm də 2016 və 2020-ci illərdə baş verən döyüşlər zamanı məruz qaldığı davamlı hücumlara, raket və artilleriya atəşlərinə baxmayaraq mübarizəsini davam etdirmiş, Azərbaycan xalqının əzmkarlıq və müqavimət simvoluna çevrilmişdir. Şəhərin genişmiqyaslı dağıntılara baxmayaraq dayanıqlılıq nümayiş etdirməsi onu II Dünya müharibəsi zamanı qəhrəmanlığı ilə fərqlənmiş Stalinqrad (indiki Volqoqrad) şəhəri ilə müqayisə etməyə əsas verir. Bu səbəbdən Tərtər bəzən "Azərbaycanın Stalinqradı" kimi adlandırılır [20]. Yerli əhalinin dözümlülüyü, xalqın həmrəyliyi və əsgərlərin göstərdiyi fədakarlıq, Tərtəri Azərbaycanın "qəhrəman şəhər" modellərindən biri kimi təqdim etməyə əsas verir. "Qəhrəman Tərtər" ünvanı həm ictimai rəydə, həm də Prezident İlham Əliyevin çıxışlarında yer almışdır. Biz oxşar xüsusiyyətlərin Qarabağ müharibəsi zamanı Şuşa, Gəncə, Ağdam, Beyləqan, Bərdə kimi şəhərlərin mübarizəsində də rast gəlinmişdir.[1]

Rayon hər iki müharibədə yüzlərlə şəhid vermişdi [15, s. 3-298; 24]. Tərtər şəhərinin

[1] Əlavə edək ki, Bakı, Şuşa, Gəncə, Ağdam və Oğuz şəhərlərinin erməni faşizminə qarşı mübarizəsi mövzusunda ayrıca tədqiqatımız vardır.

mərkəzində ucaldılmış "Şəhidlər" abidə kompleksi mülki və hərbi şəhidlərin xatirəsinə həsr edilmişdir. Hər il 27 sentyabr Anım Günündə abidə qarşısında ictimai tədbirlər təşkil edilir. Belə məkanlarda təşkil edilən anım tədbirləri şəhidlik ideyasının, milli kimliyin və tarix şüurunun yaşadılmasına imkan yaradır, eyni zamanda kollektiv yaddaşın formalaşdırılması və nəsildən-nəslə ötürülməsində mühüm vasitə rolunu oynayır. Bu baxımdan Tərtərin erməni faşizminə qarşı mübarizə tarixi qorunur.

Rəsmi məlumatlara görə, 2020 müharibəsi zamanı Tərtərdə mülki əhali arasında 16 nəfər şəhid olmuş, 63 nəfər yaralanmışdır. I Qarabağ müharibəsi zamanı isə onlarla sakin şəhid olmuş**,** minlərlə ailə didərgin düşmüşdür.

Əhali erməni faşistlərinə qarşı mübarizədə Vəzir Orucov, Elman Hüseynov kimi qəhrəmanlarla bilikdə müqavimət göstərmişdir. Vəzir Orucov (1956-1993) Qarabağ müharibəsində Sərsəng və Ağdərə istiqamətində qəhrəmanlıq göstərərək 22 mart 1993-cü ildə şəhid olmuşdur. "Milli Qəhrəman" adına layiq görülmüşdür, abidəsi ucaldılmışdır. Milli Qəhrəman Elman Hüseynov (1952-1993) isə Tərtər özünümüdafiə batalyonunun ilk komandiri olmuşdur [10; 16, s. 158-159, 169-171]. Onun xatirəsi əbədiləşdirilmiş, Tərtərdə küçələrdən birinə adı verilmiş və muzeydə guşə yaradılmışdır.

Azərbaycanın Milli qəhrəmanı Mübariz İbrahimov (1988-2010) müddətdən artıq hərbi xidmətdə olarkən 2010-cu il iyunun 19-da Tərtərin Çaylı istiqamətində erməni postuna keçərək döyüşlərdə qəhrəmanlıq göstərərək şəhid olmuşdur. Bununla da, Azərbaycan xalqının işğalla barışmadığını və hər an torpaqları işğaldan azad etməyə hazır olduğunu öz qəhrəmanlığı ilə sübut etdirmişdir.

## *Nəticə*

Tədqiqatın yekunu olaraq belə qərara gəlirik ki, həm XX əsrin əvvəllərində, həm də 1990-cı illərdə və 2020-ci ildə – cəbhə xəttinə ən yaxın mülki yaşayış məntəqələrindən biri olan Tərtər əhalisi davamlı hücumlara, ağır artilleriya zərbələrinə baxmayaraq, evlərini tərk etməmiş, gündəlik həyatlarını və müqaviməti paralel şəkildə davam etdirmişlər. XX əsrin 90-cı illərində hərbi əməliyyatların genişlənməsi müqavimət mərkəzlərinin sayı artmışdır: əsrin əvvəllərindən erməni faşizminə qarşı mübarizə mərkəzi olan Bakı, Gəncə və Şuşa şəhərləri ilə yanaşı indi Ağdam, Tərtər, Bərdə və Beyləqan şəhərləri həm döyüşçülərin toplandığı, həm də humanitar yardım mərkəzləri kimi ön plana çıxmışdır. Aprel döyüşləri (2016) və Vətən müharibəsi (2020) zamanı Tərtər Ermənistanın əsas hədəfində olan yaşayış məntəqəsi idi. 2020-ci ilin iyul ayında və Vətən müharibəsi dövründə ən çox atəşə tutulan rayon olmuşdu. 44 günlük döyüşlər ərzində Tərtər, Gəncə və Bərdə şəhərləri mütəmadi olaraq raket hücumlarına məruz qalmışdır. Bu fakt həmin ərazilərin strateji və psixoloji baxımdan hədəf seçildiyini göstərir.

Tərtər şəhəri hər üç Qarabağ müharibəsində həm coğrafi-strateji mövqeyi, həm də əhalisinin sarsılmaz iradəsi ilə Azərbaycanın qəhrəmanlıq simvollarından birinə çevrilmişdir. Bu mənada Tərtər, klassik "qəhrəman şəhər" modelinin çağdaş bir nümunəsinə çevrilmişdir. Tərtər şəhəri bu gün hərbi qəhrəmanlığın və milli mübarizənin simvolu olaraq Azərbaycanın kollektiv yaddaşında xüsusi yer tutur. Bu nəticələr göstərir ki, Tərtər təkcə hərbi cəbhədə deyil, həm də mənəvi və vətəndaş mövqeyi baxımından Azərbaycan xalqının dirəniş tarixində simvolik əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT

1. 2023-cü il üzrə Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidlərinin inzibati ərazi bölgüsü (sayı). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/demoqraphy/. xls faylı. Müraciət tarixi: 02.07.2025.
2. Ağdərə rayonunun yaradılması haqqında Azərbaycan Respublikasının Qanunu. 27 dekabr

2023-cü il. https://president.az/az/articles/view/62856 Müraciət tarixi: 25.06.2025.
3. Akif Nağı. Qarabağ müharibəsi. (Qısa tarix). Bakı, «MBM-R», 2009. 112 s.
4. Amnesty International. 4 fevral 2021-ci il tarixli hesabat. https://www.amnesty.org/en/documents/eur55/3262/2020/en/Müraciət tarixi: 20.06.2025.
5. Azərbaycan Respublikasının Bakı, Gəncə və Sumqayıt şəhərlərinin, Abşeron, Ağdaş, Ağsu, Ağcabədi, Balakən, Bərdə, Beyləqan, Vartaşen, Quba, Qutqaşen, Daşkəsən, İmişli, Yevlax, Kəlbəcər, Kürdəmir, Gədəbəy, Goranboy, Laçın, Lerik, Lənkəran, Mirbəşir, Puşkin, Saatlı, Füzuli, Cəbrayıl və Şamxor rayonlarının, Dağlıq Qarabağ Muxtar Vilayəti Şuşa rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Ali Sovetinin qərarı // http://e-qanun.az /framework/10264. Müraciət tarixi: 04.07.2025.
6. Azərbaycan Respublikasının inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli qərarı. https://e-qanun.az/framework/7800. Müraciət tarixi: 04.07.2025.
7. Azərbaycan Respublikasının iqtisadi rayonları və inzibati ərazi vahidləri üzrə əhalinin sayının dəyişməsi. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/demoqraphy/. xls faylı. Müraciət tarixi: 02.07.2025.
8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin saytı. mod.gov.az Müraciət tarixi: 10.07.2025.
9. Azərbaycan Xalq Cümhuriyyəti və Qafqaz İslam Ordusu. Elmi red. Mehmet Rıhtım, Mehman Süleymanov. Bakı, Nurlar, 2008. - 505 s.
10. CBC-nin Tərtərdə olan müxbiri Azərbaycanın Milli Qəhrəmanından danışdı - VİDEO https://oxu.az/ordu/cbc-nin-terterde-olan-muxbiri-azerbaycanin-milli-qehremanindan-danisdi-video. 30 oktyabr 2020. Müraciət tarixi: 25.05.2025.
11. Dağlıq Qarabağ: hadisələrin xronikası (1988-1994-cü illər). Bakı, «Vətən», 2005, 108 səh.
12. Ermənilərin Azərbaycana qarşı ərazi iddialarını ifşa edən abidə - “Marağa–150”. 26.10.2017 // https://azertag.az/xeber/Ermenilerin_Azerbaycana_qarsi_erazi_iddialarini_ifsa_eden_abide___Maraga_150-1106132. Müraciət tarixi: 20.09.2021.
13. Əzizov E.. Difai: XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı, CBC PP, 2009. 360 s.
14. İlham Əliyevin Azərbaycan Ordusunun aprel qələbələrinin il dönümü ilə əlaqədar bir qrup hərbçilərlə görüşdə nitqi. 31 mart 2017 // https://president.az/articles/23254/print. Müraciət tarixi: 02.07.2025.
15. Məmmədov C.Tərtər şəhidləri. Bakı, Hüquq ədəbiyyatı, 2001. - 304 s.
16. Məmmədov N. Azərbaycan Respublikası Tərtər rayonunun tarixindən. Bakı, «Avropa», 2017.- 402 s.
17. Məmmədov N. Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar vilayətində ictimai-siyasi həyat, iqtisadi və mədəni inkişaf (1923-1991). Bakı, Təhsil, 2008. 568 s.
18. Qarabağ Azərbaycandır. Zəfər epopeyası. Bakı, Azəripoliqrafiya, 2021. 600 s.
19. Qasımova T. Qarabağın dününinə və bu gününə tarixi baxış. s. 517-525 / “Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr” mövzusunda beynəlxalq elmi konfrans. 23-24 may 2018. AMEA Qafqazşünaslıq İnstitutu. Elmi məruzələr. 2 kitabda: 1-ci kitab. Bakı, MTM İnnovasion, 2019.
20. Qəhrəman şəhər - Stalinqradla müqayisə olunan, Prezidentin tərifədiyi Tərtər. 21 Dekabr 2020. https://modern.az/news/270277/. Müraciət tarixi: 25.05.2025.
21. Quliyeva S. Hüseyn Baykaranın “Azərbaycan istiqlal mübarizəsi tarixi” əsərində Azərbaycan xalqının erməni hücumlarına qarşı mübarizəsi. s.66-76. // Bakı Universiteti

Xəbərləri. Humanitar elmlər seriyası. №2. Bakı, Bakı Universiteti nəşriyyatı, 2021.
22. Saxtakarlığı ifşa edən abidə. 26 noyabr 2017 // https://www.youtube.com/watch?v=3K_epssyGJE. Müraciət edilən tarix: 25.10.2021.
23. Tərtər Rayon İcra Hakimiyyətinin saytı. http://terter-ih.gov.az/az/ehalisi.html. Müraciət tarixi: 06.07.2025.
24. Vətən müharibəsi şəhidləri. Tərtər Rayon İcra Hakimiyyətinin saytı. http://terter-ih.gov.az/az/veten-muharibesi-sehidleri.html. Müraciət tarixi: 06.07.2025.
25. Азербайджанская ССР Административно-территориальное деление на 1977 г. Баку, Азерб. Государственное изд., 1979. 215 с.
26. Мамедзаде Н. Геноцид азербайджанцев в Карабахском регионе Азербайджана (1918-1920). Баку, «Турхан» ИПО, 2014. 340 с.
27. Махмудов Я. Геноцид тюрко-мусульманского населения Азербайджана в 1918-1920 годах. Баку, ИПО Турхан, 2018. 100 с.

УДК 94 (479.24)

*Саида Закир кызы Кулиева*
*Бакинский Государственный Университет*

# СОПРОТИВЛЕНИЕ НАСЕЛЕНИЯ ТЕРТЕРСКОГО РАЙОНА АРМЯНСКОМУ ФАШИЗМУ И УЧАСТИЕ ЕГО (НАСЕЛЕНИЯ) В КАРАБАХСКИХ ВОЙНАХ

## *РЕЗЮМЕ*

*Исследование посвящено 5-летию Победы в Отечественной войне.*

*Ключевые слова:* Тертер, Карабахская война, армянский фашизм, народное сопротивление, город-герой

В данной статье проводится комплексный анализ сопротивления населения Тертерского района армянскому экспансионизму в XX–XXI веках, а также участие его (населения) в Карабахских войнах. В исследовании освещается геостратегическое значение района, проявленное населением мужество в условиях вооружённой агрессии, этапы военной и гуманитарной борьбы, а также вклад героических жителей Тертерского района на основе архивных источников и публикаций в прессе.

Автор опирается на исторические источники и систематизирует историю сопротивления Тертерского района, охватывая широкий хронологический период — от событий 1905–1907 годов и эпохи Азербайджанской Демократической Республики до вооружённых столкновений конца XX и начала XXI века. Особое внимание уделено Карабахским войнам 1990-х годов и 2020 года, в ходе которых Тертер, расположенный в непосредственной близости от линии фронта, приобрёл не только стратегическое, но и символическое значение. Несмотря на массированные обстрелы, значительная часть мирного населения не покинула город, продемонстрировав исключительную стойкость и патриотизм. Во время Отечественной войны 2020 года Тертер проявил себя как современный пример «города-героя», символа национальной воли и гражданской отваги.

Таким образом, исследование акцентирует ключевую роль Тертерского района в противостоянии армянской агрессии и вносит вклад в сохранение исторической памяти о событиях, сыгравших важную роль в новейшей истории Азербайджана.

UDC 94 (479.24)

*Saida Zakir Guliyeva*
*Baku State University*

THE RESISTANCE OF TARTAR'S POPULATION TO ARMENIAN FASCISM AND ITS PARTICIPATION IN THE KARABAKH WARS

*SUMMARY*

*The study commemorates the 5th anniversary of Victory in the Patriotic War.*

*Key words:* Tartar, Karabakh war, Armenian fascism, national resistance, hero city

The article provides a chronological analysis of the resistance shown by the people of Tartar district against Armenian fascism in XX and XXI centuries, as well as their participation in the Karabakh wars. The study highlights the district's geostrategic importance, the steadfast resistance of the local population despite severe challenges, various military and humanitarian aspects of the struggle, and the heroic deeds of Tartar's defenders drawing upon archival and press materials.

Drawing on historical sources and factual evidence, the author systematizes Tartar's resistance history, covering the events of 1905–1907, the period of the Azerbaijan Democratic Republic, and especially the Armenian aggression at the end of XX century. During the Karabakh wars of the 1990s and in 2020, Tartar acquired both strategic and symbolic significance as a frontline district where civilians remained in place despite ongoing hostilities. This is portrayed as a testament to national resilience and resolve. In the 2020 Patriotic War, Tartar's steadfastness and the resolve of its population transformed the city into a modern example of a "hero city."

This research not only highlights Tartar's role in the fight against Armenian fascism but also contributes to the collective historical memory of these events.

***Daxil oldu: 16.07.2025-ci il***